**MƏTANƏT MƏMMƏDOVA**
*tarix elmləri namizədi*

# METODİKANIN TƏRBİYƏ VƏZİFƏLƏRİ

Vətənpərvərlik tarixi dünyagörüşüdür. Hər bir tarixi formasiyanın yenisi ilə əvəz olunması nəsillərin dəyişməsinə səbəb olmuşdur. Bununla birlikdə vətənpərvərlik anlayışının mahiyyəti də dəyişmişdir. Tarixin tərdisi metodikasında vətənpərvərlik və milli ruhda tərbiyə ən başlıca amillərdəndir. İndiki gənc nəsil həm də beynəlmiləl ruhda tərbiyə edilməlidir.Onlar bütün xalqların tarixini və mədəniyyətini bilməlidirlər.

Məktədbə intizam prosesi şəxsiyyətin ən mühüm əlamətini-kollektivin forma və tələblərinə uyğun olaraq öz davranışını idarə etmək cəhdi və bacarığını formalaşdırır. İnadkarlıq, təşəbbüs, müstəqillik, təmkinlilik və mütəşəkkillik –şəxsiyyətin bütün bu təzahürləri,həm də intizamlılığı xarakterizə edir. Vicdanlılıq və doğruçuluq kimi əxlaqi əlamətlər yüksək intizamla sıx təmasdadır.

Məktəbdə sinifdənxaric iş ilə;tarixi ekskursiyaların təşkil edilməsi ilə həm də şagirdlərin fiziki tərbiyəsi və mədəni səviyyəsi formalaşır.

Məktəbdə estetik tərbiyə alan fərd gözəllikdən həzz almaq və onu yaratmaq üçün müəyyən keyfiyyətlərə yiyələnməlidir ki,onların məcmusu estetik mədəniyyəti təşkil edir. Bu mədəniyyətin ilkin əsası estetik hiss,gözəlliyə xüsusi emosional həssaslıqdır. Gözəlliyi tam qavramaq üçün nəzəri və konkret biliklərin müəyyən ehtiyatı lazımdır. İnsanın estetik mövqelərinin,baxışlarının,ideyalarının bilavasitə inikası estetik zövqdür.(1)

Tərbiyə üsulları-tərbiyə prosesinin çox mürəkkəb komponentidir.Makarenko tərbiyə üsulunu «şəxsiyyətə toxunmaq aləti»adlandırmışdır.(2)

Tərbiyə üsulları elə vasitələrdir ki,onların köməyi ilə tərbiyə olunanların şüuruna, davranışına, onlarda zəruri keyfiyyətlərin formalaşmasına, müxtəlif münasibətlər təcrübəsinin zənginləşməsinə məqsədyönlü təsiri həyata keçirmək mümkündür.

Tərbiyə üsullarının səciyyəsi üçün başlıca nəzəri əsaslar almaq etibarilə aşağıdakılara istinad edilir:

1)Filosofların belə bir iddiası əsasdır ki, hər hansı tərbiyə üsulu gerçəkliyi dərk etmək və yenidən dəyişdirmək üsuludur.

2)Tərbiyə üsulları yalnız tərbiyənin məqsədlərinə,məzmununa deyil, həm də tərbiyəçinin əməli fəaliyyətinin real prosesi qarşısında qoyulan vəzifələrə də cavab verməlidir.

3)Məktəblinin tərbiyə prosesi-xüsusi məktəb fəaliyyətidir və böyüməkdə olan insan öz şüuru, davranışı, aləmə və adamlara münasibəti ilə öz mürəkkəb daxili aləmi, yaşı və fərdi imkanları ilə mütəşəkkil və kortəbii qaydada qazanılan həyat və fəaliyyət təcrübəsi ilə onun özəyini təşkil edir.

4)Böyüməklə olan insan şəxsiyyətinin təşəkkülü ziddiyyətli olduğu kimi, tərbiyə prosesi də ziddiyyətlidir. Tərbiyə olunan arzu olunmayan istiqamətdə inkişafdan sapınmalı,onda mənfi tərzlər, xassələr, əlamətlər formalaşmamalıdır.

Vaxtilə Belinski deyirdi ki,uşağa ağıllı və düzgün hərəkət etməyin zəruruliyini öyrətməkdən daha çox ağıllı davranışa alışdırmaq lazımdır.(3)Mütəşəkkil və düzgün hərəkətə alışdırmaq-mənəvi adətin əsasıdır. Şagird bekarçılıqdan,xaotik hərəkətdən, məqsədsiz vaxt itirməkdən çəkinməlidir,çünki onlar tərbiyənin bünövrəsini dağıdır.

Rəğbətləndirmə və cəzalandırma tərbiyənin əsas komponentlərindəndir. Rəğbətləndirmə məktəblilərdə müsbət hərəkətlərin, əməllərin emosional möhkəmləndirilməsi-

nə yönəlməlidir. Kəskin və tez-tez duyulan rəğbətləndirmə özünün əksinə çevrilə bilər. Məktəblinin nöqsanlı davranışına ləngidici təsir göstərən cəzalandırma rəğbətləndirmədəki mexanizmə malikdir. Onun nəticələri müxtəlif ola bilər; ya neytral ola bilər, yəni lazımı təsir göstərməz, ya tərbiyəçi ilə şagird arasında emosional sədd yarana bilər, ya da məktəblidə məyusluğa, ruh düşkünlüyünə gətirər.

Tarixin tədrisində tərbiyə vəzifələrindən ən mühümləri aşağıdakılardır:

1.Tarixin tədrisində şagirdlərin vətənpərvərlik ruhunda, doğma xalqına məhəbbət, doğma vətənini müdafiə etməyə hazır olmaq və lazım gəldikdə onun uğrunda ölməyə hazır olmaq, ruhunda tərbiyə etmək;

2.Şagirdləri beynəlmiləlçilik ruhunda tərbiyə etmək;

3.Şagirdləri əməyə məhəbbət ruhunda tərbiyə etmək;

4.Xalqımızın adət-ənənələrinə hörmət, ədalətsizliyə qarşı mübarizə ruhunda tərbiyə etmək;

5.Estetik tərbiyəyə alışdırmaqla tərbiyə etmək;

6.İslam əxlaqı və mədəniyyəti ruhunda tərbiyə etmək.

Məktəbdə tarix dərsində həll edilən sayıb göstərdiyimiz tədris və tərbiyə vəzifələri bir-birilə ayrılmaz vəhdət təşkil edir. Tarix dərsində yerinə yetirilən tərbiyə işinin əsasını biliklərin verilməsi təşkil edir. Öz ölkəsini,öz xalqını sevməkdən ötrü xalqın tarixi keçmişini bilmək lazımdır. Başqa xalqlara məhəbbət bəsləməkdən ötrü bu xalqların tarixi ilə, ənənə və mədəniyyəti ilə tanış olmaq lazımdır.

Tarixin tədrisində təlim və tərbiyənin vəhdəti təlim-tərbiyə prosesinin bu cəhətləri arasında süni əlaqə yaradılmasından ibarət deyildir. Bu vəhdət tarix müəllimlərinin işinin öz mahiyyətindədir və vəhdət onun şagirdlərlə apardığı bütün gündəlik işi əhatə edir.(4)

Ümumi pedoqoji planda götürdükdə təlim və tərbiyənin vəhdəti,şagirdlərin dünyagörüşünün formalaşdırılması, ümumiyyətlə, məktəbin və xüsusilə də tarix tədrisinin həm maarifləndirici, həm də tərbiyəvi vəzifəsinin eyni zamanda təmsil edilməsidir. Tarix tədrisində təlim və tərbiyənin vəhdəti ondan ibarətdir ki,proqram üzrə öyrənilməli olan tarix materiallarının nəinki idraki əhəmiyyəti, həmçinin tərbiyəvi qiyməti vardır. Konkret tarixi faktların maarifləndirici və tərbiyəvi əhəmiyyəti həm şagirdləri valeh edib ruhlandıra bilər, həm də hiddətləndirib nifrət yarada bilər, davranışa təsir göstərə bilər, həmçinin nümunə ola bilər. Tarixi obrazın bu emosiya və mənəvi dolğunluğu məktəbdə tarix tədrisində müstəsna əhəmiyyətə malikdir. Lakin tarixi faktın bu idrak və tərbiyəvi əhəmiyyətini reallaşdırmaq üçün əvvələn, fakt materialını düzgün seçmək, yəni tarix elminin müasir səviyyəsinə və məktəbdə tarix kursunun vəzifələrinə müvafiq olaraq seçmək lazımdır və ikincisi, elə etmək lazımdır ki, faktlar şagirdlərə canlı şəkildə, konkret formada təqdim edilmiş olsun.

Tədris prosesində tarixi faktın öyrənilməsi gedişində bu faktın müəyyən dərəcədə şagirdlərin mənafeyi, fikirləri, səyləri və hisləri ilə bağlı olduğu cəhətlər açılıb göstərildikdə həmin tarixi fakta şagirdin fəal, şəxsi münasibəti yarana bilər. Buna tarixi faktın konkret həyati əhəmiyyətini vurğulamaqla, öyrənilən dövrdə insanların həyat yolunun işıqlandırılması ilə də nail olmaq olar.

Konkret fakt ümumi əsaslardan və mücərrəd təriflərdən daha çox emosiya və mənəvi təsir qüvvəsinə malikdir. Tarix materialının xüsusi tərbiyəvi əhəmiyyəti ona əsaslanır ki, hər hansı bir tarixi fakt istər-istəməz insanların fəaliyyət dairəsinə, onların mübarizəsinə, münasibətlərinə, səylərinə, məqsədlərinə, ümidlərinə, baxışlarına və müqəddəratına aiddir. Konkret faktiki material əsasında yaradılan canlı tarixi təsəvvürlər sistemi nəinki idraki, enyi zamanda tərbiyəvi əhəmiyyət kəsb edir.(5)

Tarixi materialın izahının metod və üsullarının özü tarix materialının ideya-tərbiyəvi əhəmiyyətini şagirdlərə çatdırmağa kömək edir. Müəllimin hələ sadə söhbətinin özündə tarix materialı elə seçilib ardıcıllıqla qurulmalıdır ki, bu həm elmi cəhətdən düzgün olsun, həm də müəyyən tarixi hadisənin məğzini və xüsusiyyətini şagirdlərə inandırıcılıqla təqdim etməyə daha çox kömək etsin.

Məktəbdə tarix tədrisinin qarşısında duran maarifləndirici və tərbiyəvi vəzifələri düzgün həll etmək V-VI sinif şagirdlərinin (uşaqların), VII-VIII sinif şagirdlərinin (yeniyetmələrin), IX-XI sinif şagirdlərinin (gənclərin) yaş xüsusiyyətlərini nəzərə almadan mümkün deyildir.

Yuxarı sinif şagirdi tarixi faktları toplamaqdan daha çox bu faktların mənasını düşünməyə və onları ümumiləşdirməyə səy göstərəcəkdir. Tarix dərsində onu hadisələr haqqında təkcə parlaq hekayə deyil, eyni zamanda daha artıq dərəcədə tarixi faktlar arasında rabitənin yaradılması qanunauyğunluqların aşkar edilməsi, nəzəri ümumiləşdirmələr maraqlandıracaqdır.

Tarix kursları cəmiyyətin inkişaf qanunauyğunluqlarını, onun iqtisadiyyatını, siyasətini, mədəniyyətini açıb göstərir.

Tarixin tədrisində tərbiyələndirici funksiyanın başlıca əhəmiyyəti bundan ibarətdir ki, o, şəxslərin formalaşması üçün vacib olan proseslərin çarpazlaşıb birləşməsi üçün zəruri şərait yaradır. Metodikada ictimai əhəmiyyətə malik təlim-tərbiyə məqsədlərinin vəhdəti özünü aydın şəkildə göstərir.

Azərbaycan Respublikasında təhsil ümummilli inkişafın prioritet sahəsi kimi müəyyən olunur. Dövlətimizdə təhsilin əsas məqsədi vətən qarşısında öz məsuliyyət və cavabdehliyini dərk edən,xalqın azadlıq amalına və demokratiya ənənələrinə,insan hüquqları və azadlıqlarına hörmət edən,müstəqil və yaradıcı düşünən şəxsiyyət yetişdirməkdən ibarətdir. Həmçinin,mili,mənəvi və ümumbəşəri dəyərlərə dərindən yiyələnən, geniş dünyagörüşünə malik,təhsil aldığı ixtisas üzrə nəzəri və praktik biliklərə tam yiyələnən, müasir təfəkkürlü, dövlətçilik prinsiplərinə və azərbaycançılıq ideyalarına sadiq vətəndaş tərbiyələndirməkdən ibarətdir.

## *ƏDƏBİYYAT*

1.Болдырев Н.И.Методика воспитателъской работы в школе.М.,1975.

2.Методика обучения истории в средней школе.Ч.1., (ответствен.ред.Ф.П. Коровкин), М., 1978, 225 стр

3.Məktəb pedaqogikası.(Q.İ.Şukinanın redaktəsi ilə «Maarif nəşriyyatı», (Tərcümə), Bakı,1982

4.Вагин А.А.Методика преподования истории в средней школе.М.,1968

5.Дидактика средней школы.Под ред.М.А.Данилова и М.Н.Скаткина.М.,1975,гл.4.

6.Иванов В.В.Методология исторической науки.Москва,1985.

7.Ковалъченко И.Д.Исторический источник в свете учения об информации.»История СССР»,1986,№4

8.Коротков В,М.Педагогические требования.М.,1966

9.Müəllim hazırlığının və orta təhsilin perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında) Müəllimlər üçün vəsait.Bakı,2005,473 səh.

10.Методика обучения истории в средней школе.Пособие для учителей.Отв.ред. Н.Г.Дайри. Ч.II. Москва,1978,239 стр.

11.Стражев А.И.Методика преподавания истории.М.,1964.

12.Сахаров А.М.Методология истории и историографии.Москва,1981.

13.Леонтъев А.Н.Деятелъностъ.Сознание.Личностъ.М.,1975,гл.4;5.

14.Ковальченко И.Д.Методы исторического исследования.Москва,1987.

**МЕТАНЕТ МАМЕДОВА**
***кандидат исторических наук БГУ***

## ВОСПИТАТЕЛЬНЫЕ ФУНКЦИИ МЕТОДИКИ

Курсы по методике преподавания истории освещают общие закономерности развития общества, экономику, политику, культуру.

Основные значение воспитательных функций методики преподования истории состоит в том, что создаются условия для основного процесса формирования личности, а также в методике преподавания освещаются воспитательные цели общественного значения.

**METANET MAMEDOVA**
***candidate of historical sciences of BSU***

## EDUCATIONAL FUNCTION OF THE METHODIC

The courses of history show the improvement of the society, it economy, policy and culture.

The man importance of studing history is to make very necessary condition for the processes that are important to shape the individuals. In themethodical process the aim of education is show very clearly.

***Rəyçilər: t.e.n.S.B.Qasımova, t.e.d.A.C.İsgəndərov.***

***BDU-nun «Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının 14 aprel 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №08).***